# Möhtəşəm qəhrəmanlığa layiqli ehtiram



Ölkəmizin hər yerində son günlərdə yüksək vətənpərvərlik əhvali-ruhiyyəsi hökm sürür. Şübhəsiz, bunun da əsas səbəbi 22 ildir hökm sürən atəşkəs rejimi ərzində ilk dəfə olaraq cəbhəboyu ərazilərdə yaşanan genişmiqyaslı hadisələrdir. Təcavüzkar Ermənistan tərəfindən işğal olunan torpaqlarımızda növbəti təxribatın qarşısını alan ordumuz düşmənə sarsıdıcı zərbə endirib.

Düşmənin yüzlərlə əsgərini, həmçinin hərbi texnikasını sıradan çıxaran ordumuzda vətən uğrunda qeyrətlə, şücaətlə döyüşən əsgərlərimizdən şəhidlik zirvəsinə ucalanlar da olub. Onlardan biri aprelin 4-də Goranboy istiqamətindəki yüksəkliklər uğrunda gedən döyüşlərdə şəhid olmuş Naxçıvan Muxtar Respublikası Babək rayonunun Cəhri kəndində dünyaya göz açan 40 yaşlı mayor Rasim Əbdül oğlu Məmmədovdur.

Qəhrəman döyüşçü aprel ayının 5-də səhər saatlarında Bakı Beynəlxalq Aeroportundan Naxçıvana yola salınıb. Şəhid mayoru qarşılamaq üçün minlərlə insan təkcə Naxçıvan şəhərindən yox, muxtar respublikanını müxtəlif rayon, qəsəbə və kəndlərindən hava limanına gəlmişdi.

Tabutu doğulduğu Cəhri kəndinə aparanda avtomobilin ardınca yüzlərlə maşın hərəkət edirdi. Üçrəngli Azərbaycan bayraqlarını dalğalandıran gənclərin “Şəhidlər ölməz, vətən bölünməz”, “Vətən sənə canım fəda”, “Qarabağ bizimdi, bizim olacaq” və bu kimi şüarlar təkcə son günlərdə şəhid olan qəhrəman vətən ovladlarına duyulan sevgi deyildi. Həm də gənc və yeniyetmələrlə birlikdə, gənclərin, yaşlı insanların hər an torpaqlarımızın geri alınması üçün veriləcək səfərbərlik əmrinə hazırıq mesajı idi.

Naxçıvan şəhərindən Cəhri kəndinə olan 10 kilometrlik yol boyu şüarlarını bir an olsun dayandırmayan insanlara cəhrililər də qoşularaq şəhid mayor Rasim Məmmədovu öz ata ocağına kimi izlədilər.

İgid mayor kənd qəbiristanlığında ən yüksək təpədə torpağa tapşırıldı. Cənazəsi üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı şəhidin qardaşına təhvil verildi.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, kənd sakinlərinin, muxtar respublikanın müxtəlif rayonlarından gəlmiş vətəndaşlarının iştirak etdiyi dəfndə şəhidin məzarı başında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Xalqımızın milli ruhu, vətənpərvərlik duyğuları onu deməyə əsas verir ki, Azərbaycan xalqı öz torpaqlarını qısa zamanda işğaldan azad etməyə hazırdır və o gün çox yaxındadır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bir neçə gün əvvəl Təhlükəsizlik Şurasının iclasında dediyi bu sözlər artıq hər bir vətəndaşın dilinin əzbəridir: “Biz Ermənistan torpağını işğal etməmişik. Biz öz torpağımızda vuruşuruq. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun”.

Dəfndə iştirak edən insanların əsas diləyi bu idi: mənfur ermənilər tərəfindən işğal olunmuş ərazilərimiz tez bir zamanda ordumuz tərəfindən azad edilsin və şəhidlərimizin qanı yerdə qalmasın...

***Elxan MƏMMƏDOV,***
***“Azərbaycan”***